UOT 911.3
316

# ZƏNCAN BÖLGƏSİNDƏ TURİZM SEKTORUNUN GENİŞLƏNDİRİLMƏSİ POTENSİALI VƏ COĞRAFİYA İNFORMASİYA SİSTEMİNDƏN İSTİFADƏ İLƏ FƏALİYYƏTLƏR MƏKANININ TAPILMASI

**BƏHRAMƏLİ XUDAYİ**
***Bakı Dövlət Universiteti***
***ba_khodaei@yahoo.com***

*Məqalədə Zəncan əyalətinin turizmi haqqında geniş araşdırılma aparılmışdır. Bildiyimiz kimi, kənd turizminin inkişafı da turizm sənayesinin inkişafında mühüm yer tutur. Bu vaxta kimi daha çox diqqət şəhər bölgələrinə yetirilmişdir. Buna görə də çalışmışıq ki, kənd bölgələrinin inkişafında kənd turizminin təsirini araşdıraq.*

**Açar sözlər:** turizm, kənd, geosiyasi, şəhər, resurs.

Turizm sahəsi XXI əsrdə elə əhəmiyyət və etibar qazanmışdır ki, dünyanın ən böyük sənayesinə çevrilmişdir. Dağıdılmamış təbiət və mədəniyyət mühitləri bu hərəkətdə olan sahəsinin genişlənməsinin əsas bazasını təşkil etmişdir.

Turizm elə bir prosesdir ki, qədim dövrlərdən bəşər cəmiyyətlərində öz xüsusi formaları ilə mövcud olmuş və tədricən öz tarixi inkişaf mərhələlərini keçmişdir. Bu hadisə ümumilikdə səfər əsasında formalaşmışdır ki, özü müxtəlif ruhi, mədəni, ictimai və iqtisadi ehtiyaclardan doğur.

Dünya və İranın müxtəlif bölgələrində bu sahənin inkişafı eyni şəkildə olmamış, mədəni, təbii, tarixi potensial və resursların idarəçiliyi baxımından müxtəlif olmuşdur.

Hər bir bölgənin turizm üçün müxtəlif cəlbetmə vasitələri vardır. Təbii resurslar, gözəl mənzərələr, qədim tarix və bu kimi şeylər ən mühüm maraq kəsb edən sahələrdir. Dövlətlərin turizmin genişləndirilməsinə marağının ən təsirli dəlillərindən biri onların milli inkişafında bu sənaye iqtisadiyyatının təsirləridir. Zəncan ostanının (İranda inzibati ərazi vahidi) da maraqlı turizm sahləri vardır ki, əgər əlaqədar təşkilatlar turizmin inkişafına diqqət etsələr, onun iqtisadi gəliri digər bölmələrdən az olmayaraq, insana daha çox rövnəq bəxş edəcəkdir.

Bu gün dünyanın əksər ölklərində, xüsusilə inkişaf etməkdə olan ölkələrdə böyük ictimai və ekoloji xərclərlə nəticələnən keçmiş səhvlər və düzgün

olmayan siyasətlərin aparılmasına baxmayaraq onun inkişafına daha çox diqqət yetirilir və çox müştərisi olan qitədaxili turların tədarükü məqsədilə yeni tədris və strategiyalara başlanılmışdır (Rizvani, 1374).

Bu məqalədə çalışmışıq ki, Zəncanın kənd baxımından inkişafında turizm sənayesinin rolu tədqiq olunsun. Bu vaxta kimi daha çox diqqət şəhər bölgələrinə, mədəni və təbii maraqlara yetirilmişdir. Buna görə də kənd turizminin əhəmiyyəti və kəndin inkişafında bu sənayenin oynadığı rola əsasən kənd bölgələrinin inkişafında kənd turizminin təsiri araşdırılmalıdır.

Turizm fəaliyyətlərindən istifadənin hər bölgədə həmin bölgənin inkişafı üçün fəal zəmin yaratması səbəbindən sözügedən potenisial imkanların təhlili ekoloji məsələlərə riayətlə birlikdə xüsusi əhəmiyyət kəsb edir. Bir tərəfdən şəhər əhalisinin əyləncə və istirahət mərkəzlərinə gündən- günə artan ehtiyacları, digər tərəfdən il boyu milyonlarla turistin yerbəyer olunması, həmçinin onların ekologiyaya böyük təsiri turizmin güclü inkişafı mövzusunun əhəmiyyətini üzə çıxarır.

Güclü inkişaf üçün çoxlu tərif və həlli yolları təqdim olunmuşdur. Bu təriflərdən biri Brandland komissiyasının tərifidir. Güclü inkişaf elə bir inkişafdır ki, hazırki ehtiyacları gələcək nəslin potensialına zərər yetirmədən öz ehtiyaclarına da cavab versin (Cenifer, 1378, 57). Həqiqətdə demək olar ki, sabit inkişaf elə üsul və vasitələrin yaradılmasıdır ki, aşağıdakı beş əsas ehtiyaca cavab verə bilər:

A) Qoruma və inkişafı birləşdirmə

B) İnsanın ilkin yaşayış ehtiyaclarının təmini

C) Muxtariyyət və mədəni müxtəliflik

Ç) İctimai ədalətə nail olma

D) Ekologiyanın vahidliyinin qorunması (Miradzadə, 1373, 39).

Bu ehtiyaclar bir-biri ilə o qədər sıx bağlıdır ki, ilkin fəaliyyət baxımından onları nizama salmaq boş bir işdir və onlardan hər biri başqa bir məqsədə çatmaq üçün lazımi məqsəddir.

Ümumi vəziyyətdə sabit inkişafın elmi yollarını aşağıdakı hallarda tapmaq olar:

- Kasıblara kömək. Çünki onların ekologiyaya zərbə vurmaqdan başqa çarələri olmur.
- Təbii resursların tükənməsi çərçivəsində yerli inkişaf məsələsinə diqqət
- Qeyri-ənənəvi iqtisadi xüsusiyyətlərdən istifadə etməklə inkişafı təsirli etmək
- Hamı üçün mühüm mövzular, o cümlədən münasib texnologiya, səhiyyə və məskəni nəzərdə tutmaq
- İnsanı dəyərləndirmə və bu gerçəkliyi dərk etməkdir ki, insanı dəyərləndirmə stimuluna ehtiyac duyulur (Papeli Yəzdi, 1382, 51).

**Sabit turizmin inkişafı siyasətləri:**

Turizm bölgə sakinlərinin yaşayış səviyyəsini yaxşılaşdırmaq və məkanın əhəmiyyətinin dərki istiqamətində iqtisadi fəaliyyətlər kimi inkişafda mühüm amil sayılır. Dövlətlər ölkə mühitinin inkişafı prosesində öhdələrinə mühüm rol götürürlər.

Hər bir bölgədə sabit inkişaf siyasətləri Capasity catting-in gözlənməsi tutumu ilə yanaşı və uyğun olmalıdır. Bu termin turizmin minimal tərifidir ki, turizm bölgələrində qəbul oluna bilərlər.

Dünya səyahətindən turizmə keçmə ənənədən müasirliyə keçmədir. Ənənədən müasirliyə keçid isə qüdrət və azadlıqla yanaşı olmalıdır. Əgər ənənə və müasirliyi bir kvadratda yerləşdirsək, bir tərəfi ənənə, digər tərəfi müasirlik olarsa, iki tərəfi də azadlıq və qüdrət olar (Nəraqi, 1382). Belə ki, dünya səyahətindən turizmə keçid siyasi baxımdan azadlıqla nəticələnir.

**Turizm geosiyasəti:**

Zəncan ostanı ölkənin yeddi ostanı ilə (Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil, Gilan, Qəzvin, Həmədan və Kürdüstan) qonşuluq, Zəncan yaylalarının məşhurluğu, geosiyasi bölgədə (insani-təbiət) yerləşməsi, ölkə və Avropanın şimaldan cənuba, şərqdən qərbə dörd tranzit yolunun olması baxımından İranın ən böyük geosiyasi turizm bölgələrindəndir.

İnformasiya-dünya iqtisadiyyatı istiqamətində hərəkət coğrafi sahədə yeni fəaliyyəti açır. Bu iqtisadiyyatda turizm istər sərmayə qoyuluşu, istsərsə də turizmin cəlbi baxımından kapital qazanmanın əsas amillərindən biri kimi geosiyasi iqtisadi əhəmiyyət qazanmışdır. Turizmlə əlaqədar müxtəlif bölgələr arasında rəqabət geosiyasi səylərə səbəb olur. Bölgələr turizm sahəsində möhkəm mövqe qazanmaq üçün müəyyən məqsədləri öhdələrinə götürürlər. Geosiyasətdə ölkə mühiti məfhumu insanın nüfuzu altında olan bütün mühitlərdən ibarətdir və onun geosiyasi texnologiyasının genişlənməsi ilə genişlənir (İzzəti, 1371, 84).

Turizm geosiyasəti, xüsusilə daşınma və nəqliyyat sahəsində texnoloji yeniliklər dünyanı kapitalizm arenasına daxil edir. Bu geosiyasət dünya səviyyəsində böyük iqtisadi turizm siyasətlərinə imkan yaradır və turizmi dünya işinə çevirir (Sugiyarto, 2003, 283-284).

Turizm fəaliyyətlərinin formalaşması İkinci Dünya müharibəsindən sonra turist-ev sahibi və mühitlə başlayır.

Turizmə geosiyasətin təsiri bölgədə, xüsusilə rostmodern dövründə özünü biruzə verir ki, onda bölgə istiqamətində kapitalın cərəyanı turist qəbul etmə zəminində yüksək potensialla hərəkətdədir. Turizm geostrategiyasının təhlilində geosiyasi bölgələr müəyyən olunur ki, Zəncan geosiyasi baxımdan həssas bölgələrdən biri sayılır.

Bir bölgə fəaliyyəti dövlətlərin turizm geosiyasəti zəminində təsirinin artamısına səbəb olur və turizm cərəyanının təhlili imkanını yaradır (Papeli Yəzdi, 1385, 121).

Bu o zaman baş verir ki, dünya iqtisadiyyatının qloballaşması maliyyə və texnologiya ötürülməsində azalmış və millətlərarası fəaliyyəti artırmışdır. Həmçinin kapital rəqabətini xüsusi coğrafiya çərçivəsindən çıxarıb dünya səviyyəsinə daxil etmişdir. Bunun özü yeni bölgə sistemlərini formalaşdırır (Pişqahi Fərd, 56, 1380).

**Kənd turizmi:**

Kənd turizminə belə tərif vermək olar: Kənd turizmi kənd mühitində müxtəlif turizm fəaliyyətləri və növlərindən ibarətdir ki, kənd, insan və mühitin ekologiyası üçün müsbət-mənfi təsirləri əhatə edir (Səqayi, 1382, 112).

Hal-hazırda kənd turizmi turizmin ən çox cəmiyyətli formalarından biri hesab olunur. Bu elə bir haldadır ki, kənd turizmi bir tərəfdən iqtisadi və fəaliyyət növlərinin inkişafına səbəb ola bilər, digər tərəfdən artıq insan qüvvəsinin cəlbi ilə kənd sakinləri üçün iş və gəlir yerlərini yarada bilər. Bu da kəndin hərtərəfli inkişaf imkanlarından biri sayılır (Səqayi, 1382, 2).

Kəndlər və kəndlilər iki baxımdan turizm sənayesi ilə əlaqədədirlər. Biri turistlər, xüsusilə daxili səyyahların asudə vaxtlarını keçirmək üçün əyləncə və istirahət yerləri kimi kənd mühitləri sayılır, ikincisi isə budur ki, onların məhsulları, o cümlədən kəndin qida və əl işləri turistlərə təklif olunur və bu da onların iqtisadi rifahının yaxşılaşmasına kömək edir.

Təbii şərait və iqlim ünsürləri kənd mühitinin iqtisadi, ictimai və mədəni sistemi ilə yanaşı kəndlərin müxtəlif formalarını yaradır ki, hər biri memarlıq, yaşayış növü, adət-ənənələr, dini əqidələr baxımından bir-birindən fərqlənir və turistlərin marağına səbəb olan özünəməxsus xüsusiyyətlər və müxtəliflik yaradır (Rizvani, 1374).

Kənd turizminin təsirlərini aşağıdakı hallarda bəyan etmək olar:

A) Mühüm iqtisadi təsirə malikdir və bir növ kənd yaşayış məskənlərinin boşalması və köçmə prosesinin zəifləməsinə kömək edə bilər. Əlavə işçi qüvvəsi üçün iş yerlərinin yaranması və əlavə iş üçün fəaliyyətlərin yaranması.

B) Digər iqtisadi sahələrlə yanaşı kənd iqtisadiyyatının müxtəlifliyi.

C) Kənd ailələrinin gəlir səviyyəsinin yüksəldilməsi

D) Münasib kənd yaşayış məskənlərini yaratmaq və münasib xəidmətləri təqdim etmək (Xudayi, 1384).

Buna əsasən, kənd bölgələri mədəniyyət, adət-ənənə və təbii resurslar sahəsində müxtəlifliyin yaranmasına görə turistlər üçün maraqlı yerlərə çevrilmişdir və bu bölgələrdə turizm növləri mövcuddur ki, təbii turizm, mədəni-turizm, ekoturizm, aqroturizmdən ibarətdir.

Təbii turizm adətən əyləncə xarakteri daşıyır.

Mədəni turizm tikililərin memarlığı, bölgə əhalisinin mədəniyyət və tarixi ilə bağlıdır.

Ekoturizmdə turistlər kənd üslubunun qorunmasında şərik olurlar, kəndlilər də turizm fəaliyyətlərindən bəhrələnirlər.

Aqroturizm elə turizm növüdür ki, onda yerli əkinçilik işlərini görmək olar, belə fəaliyyətlərdə şəxsən iştirak etsələr də, bölgə ekosisteminə və əkilən yerlərin məhsuldarlığına zərər yetirmirlər (Cəmşidir, 38, 257).

**Turizm və inkişafın əlaqəsi**

Bölgənin inkişafı istiqamətində iqtisadi yollar ondan asılıdır ki, kənd turizm məqsədlərinə kiçik bir ticarət üçün digər fəaliyyətlərlə yanaşı mozaika şəklində yerləşən məkan kimi baxılsın (Fleischer, 2000, 1010). Bölgə proqramlaşdırılmasında təqdim olunan məhsullar, bölgə potensialı turizm məhsulu kimi nəzərdə tutulur.

Turizm dünyanın ən böyük sənaye sahəsi sayılır və 125 dünya ölkəsinin iqtisadiyyatında mühüm rol oynayır.

Bu baxış turizm yönümlü bölgə sistemində bölgə proqramlaşdırılması adı ilə tanınmasına kömək edir ki, turizmin inkişafı sahəsində üfiqi fəaliyyətlərlə ümumi xüsusiyyətlərə çevrilə bilsin (Ziyari, 104, 1378).

Bir bölgədə kənd turizm məhsulunun təqdimi turizm tələbi ilə birbaşa əlaqədədir və tələb də turizm məhsulu, xidmətləri və endirimlərinin dəyəi ilə bağlıdır. Kənd turizm tələbinin formalaşması dəyişkəndir, daxili və xarici turizm səviyyələrindən hər biri ilə əlaqədədir (Qaranijad, 74, 1374).

Kənd turizm iqtisadiyyatının ən mühüm xüsusiyyətlərindən biri layihələrin kiçikliyi, müxtəlifliyi və sadəliyi baxımından xüsusi bölmədə turizm fəaliyyətinə kapital qoyuluşunu artırmaqdır.

Turizm məkanlarının tapılmasında coğrafiya informasiya sistemlərinin istifadəsi:

Turizm fəaliyyətlərinin genişləndirilməsi üçün yerləri tanımaq və tapmaq coğrafya informasiya sisteminin ən geniş və ən məşhur istifadənin biridir və bu işin səbəbi (GİS) informasiya növlərinin tərkibində vahid şəkildədir.

Goğrafiya informasiya istemindən (GİS) istifadə ilə turizm (tarixi, təbii) turist məkanlarının tapılması qərarlar qəbul olunması prosesində çox mühüm rol oynayır ki, onun birinci xüsusiyyəti bir informasiya bazasını əhatə etməkdir. Onda hər iki informasiya –fəza (rol oynama) və qeyri-fəza (izahlı, ya cədvəlşəkilli) toplanmış və hər birindən istifadə imkanını yaratmışdır (Fərəczadə, 1374).

Onun ikinci xüsusiyyəti coğrafi texnologiya vahidlərini, o cümlədən uzaqdan ölçmə, goğrafiya informasiya sisteminin dünya mövqeynin təyini sistemi və kopyuterlə layihələşdirmədir.

Coğrafiya informasiya sisteminin üçüncü xüsusiyyəti təşkilatlar üçün dayaq sisteminin hazırlanmasıdır ki, bu zəmində sistem bir mühitdə verilənlərin vahidləşdirilməsi və qərarlar qəbulu üçün vasitədir (Xudayi, 1384).

**Zəncanda dünya və İran səhayətinin genişləndirilməsinin problemləri:**

Bütün mütəxəssislərin fikrincə, Zəncanda olan turizm sənayesi çox az inkişaf etmiş və min poblemlə üzlbəüzdür. İranda turizmin çox gəlirli və geniş bazarının olmasına baxmayaraq, bu sahədə Zəncanın payı çox azdır. Belə ki,

bu mühüm iş Zəncanın coğrafi, tarixi və mədəni potensialı ilə heç bir uyğunluq təşkil etmir.

Ölkənin, xüsusilə Zəncanın turizm sənayesinin problemlərini əlaqədar təşkilatlar sistemində olan çatışmazlıqların nəticəsi saymaq olar. Zəncanda bu sənayenin əsas problemi cəmiyyətin ostanlar və dünya ölkələrinin bir parçası ilə mədəni uyğunsuzluğudur. Bundan əlavə turizm sənayesinin inkişafı və onun məqsədlərinə nail olma yolunda digər çoxsaylı problemlər vardır ki, aşağıda onların əhəmiyyətinə işarə olunur:

- Dünya və İran turizminin strateji məqsədlərinin bu sahədə fəaliyyətlərin davam etdirilməsi məqsədilə müəyyən olunmaması;
- Zəncan turizm sənayesinin ehtiyac duyulan müəssisələrinin genişləndirilməsi və təchizatı üçün maliyyə imkanlarının azlığı;
- Böyük idarəçiliyin İranda bir orqandan digər orqana ötürülməsi;
- Vergilərin artması, su, qaz və işığın qiymətinin artması;
- Dövlət orqanları və təşkilatlarının əməkdaşlıq və razılaşmasının olmaması;
- Yol daşınmaları şəbəkəsinin zəifliyi;
- Ostan turizminin genişləndirilməsinin ən mühüm amillərindən biri olan əlverişli və təchizatlı otellər, qonaq evlərinin çatışmazlığı;
- Dövlət və ümumi sektorun məsullarının turistlərlə qarşılaşma və təfəkkür üsulu;
- Ostanın təbii yerlərinə diqqətsizlik;
- Əlverişsiz reklam, heç bir elmi idarəçiliyin olmaması araşdırma və marketinq işini təqib etmir;
- Xarici turistlər üçün bank kredit kartlarından istifadə etməmək;
- İdarəçilik sənayesi ostan turizm sənayesinin geridə qalmış amillərindən biridir;
- Ostanda turistlər üçün təhlükəli yol qəzalarının baş verməsi.

**Ostan turizminin genişləndirilməsində təsirli amillər**

Daxili turizmin inkişafında əsas rolu olan amillər aşağıdakılardan ibarətdir:

İqtisadi amillər: Bu amil iki baxımdan diqqət mərkəzində durur. Biri adambaşına düşən gəlirin artması baxımındandır ki, turistlərin tələblərinin dəyişməsinə səbəb olur, ikncisi isə iqtisadi baxımdandır. Beləliklə, iqtisadi çiçəklənmə dövründə dövlət kreditlərinin müəyyən miqdarı abadlıq proqramlarının və turizmin infrasturktur təsisatlarının hazırlanması və icrasına sərf olunur ki, turizmin inkişafı üçün daha çox imkanların yaradılmasına gətirib çıxarır.

Mədəni və ictimai amillər: Bu amillər ölkə cəmiyyətinin artımı və turizmin inkişafında şəhər əhalisinin genişlənməsi şəklində özünü göstərir.

Turizm yüngülləşdirmələri: Bu elə təşəbbüslərə aid edilir ki, müxtəlif zəminlərdə turistlərin rifah və asayişinin yaradılması ostan daxilində onların razılığını qazanmaq üçün həyata keçirilir.

Tarix muzeyləri, dini məkanlarda dünyanın canlı dillərini bilən güclü bələdçilərin olması, otellərin yaradılması, milli və ostan kütləvi informasiya vasitələrində turizm reklamlarının yerləşdirilməsi, əlaqə yollarının yaradılması (yer, dəmiryolu, şose yolları, ostanın mərkəzində fəal aeroport) mütəxəssis qüvvələrinin yaradılması üçün sənaye ilə bağlı universitet fakültələrinin təşkili, imamzadələrin yanında qonaq evlərinin tikilməsi, turist agentliklərinin dövlət tərəfindən himayəsi, qonşu ostanlar və ölkələrin turizmi ilə yaxın əməkdaşlıq.

**Zəncan ostanının mühüm turizm müəssisələri**

**Turizm resursları üç hissəyə bölünür**

**Təbii resurslar**

**Su resurslarına** yeraltı sular, dənizlər, gölməçələr, çaylar, şəlalələr, təbii bulaqlar və mineral suları kimi sular daxildir. Müxtəlif fəsillərdə dəniz, gölməçə və çayların sahilləri turistlərlə doludur ki, turistlər gözəl təbiət mənzərələrindən istifadə edirlər. Zəncan ostanında da Qızıluzun, Zəncanrud kimi çoxlu çaylar axır ki, Tehran-Zəncan, Zəncan-Təbriz yolunun kənarından axır. Tarom rayonunun şərqində Sədsevidrud gölməçəsi və Sədtəhm gölməçəsi vardır. Bu gölməçələr çox turistlərin marağına səbəb ola və kənd iqtisadiyyatının genişlənməsinə gətirib çıxara bilər.

**Meşələr və bitki örtükləri**

Bitki örtükləri meşə, bağ və çəmənliklərdən ibarətdir ki, boş vaxtların keçirilməsi üçün münasib yerlər sayılır. Təmiz və sağlam hava bu bölgələrə səfər üçün turizm stimullarından sayılır ki, Zəncan ostanında da gözəl zeytun, nar və alma bağları, yaylaqlar turistlərin diqqətinə səbəb olur və kənd iqtisadiyyatının inkişafı ilə nəticələnir. Sultaniyyə çəmənliyi İranın ən böyük təbii çəmənliklərindən biridir.

**Dağ ekosistemi**

Dağ ekosistemləri yerin ən gözəl və təsirli mənzərələrindən sayılır. Onların ətraf çöllərə tam şəkildə sahiblənməsi mühüm ekoloji hadisələrə gətirib çıxarır. Bundan əlavə dağ ekosistemləri öz yaranma amilləri baxımından fərqli mənzərələrə malikdirlər. Çünki mənzərələrin zahiri siması daşlardan təşkil olunmuşdur ki, bu xüsusiyyət turizm mənzərələrinin yaranmasında müxtəliflik yaratmışdır. Zəncanın şimal-cənub yüksəklikləri, Tarom yüksəklikləri bölgənin çox gözəl məntəqələrindəndir. Zəncanın Möcüzat kəndinin mərkəzində yerləşən Bayandır yüksəklikləri bir-birindən ayrı üç bölgəyə sahib çıxmışdır.

**Heyvanların həyatı**

Heyvanların həyatına tamaşadan, xüsusi heyvan növləri üzərində araşdırmalardan, ov turlarının keçirilməsi, heyvan və quşların birgə yaşayışına baxmaqdan ibarətdir ki, öz xüsusi tərəfdarları vardır. Zəncan ostanı Səhreyn və Dəndi kimi iki heyvan qoruğuna malik olmaqla çox turistlərin marağına səbəb olar bilər.

**İsti və soyuq bulaqlar, mədənlər və ehtiyatlar**

Mədənlər və zəngin ehtiyatlar sənayedə iqtisadi və xüsusi fəaliyyətdən savayı turizm baxımından da böyük əhəmiyyətə malikdir. Ənquranda mədən ehtiyatlarının olması həmin bölgənin zənginliyinin nişanəsidir. Əgər Zəncan ostanında mineral və isti su bulaqları tam və nizamlı şəkildə tanınsa, müalicəvi turizm mərkəzlərindən biri kimi böyük əhəmiyyətə malik ola bilər və çox turistlərin marağına səbəb ola bilər. Hər il turistlərin çoxu bu bulaqlara tamaşa edir və orada müalicə məqsədilə vaxt keçirirlər. Böyük Ənquran mədənləri Orta Şərqdə misilsiz gözəlliyə malikdir.

Təbii mağaralar: Təbii mağaraların olması mağara gəzənlər, öyrənənlər və təbiət seyrçiləri üçün İlahi gözəlliklərin nişanəsidir. Zəncanda Kətləxor, Gülcik və daşkəsən mağaraları gözəl mənzərəli mağaralardan biri kimi turistlərin marağına səbəb olur. Bu mağaraların ətrafında əyləncə, yaşayış və turizm komplekslərinin tikintisi ostan turizminin inkişafına kömək edəcək.

**Dağlar və səhralar**

Yüksəkliklər, eniş-yoxuşlar, gözəl görünüşlü təpələrin olması potensial təbii resurslardandır ki, infrastruktur yaratmaqla cazibəyə çevrilir. Qışda xizəksürmə yerləri (Papayi kəndi), atsürmə və gecə ulduzlara tamaşa, təmiz havası olan ostanın turizm mənzərələrindən sayılır.

**Xüsusi kənd iqlimi və mühiti**

Kəndlərin bəzisi malik olduqları xüsusi kənd mühiti səbəbindən gözəl iqlim, xüsusi memarlıq nümunələri və ya ətraf bölgənin gözəl təbiəti ilə kənd turizmində potensial resurslardan biri kimi istifadə olunur. Əsəblərin sakitliyi üçün sağlam iqlim əlverişli amil sayılır.

**Mədəni resurslar**

**Tarixi və qədim yerlər**

Bəşər mirası ilə tanışlıq, müxtəlif tayfalar haqqında araşdırma, bəşər tarixi və mədəniyyəti və onların məişətindən xəbərdarlıq həmişə insanların diqqət mərkəzində olmuş və bəşər çalışmışdır ki, bir yolla bu məlumatlara yiyələnə bilsin. Bu məlumatları araşdırma, diqqət və tarixi abidələrə baxmaqla əldə etmək olar. Buna görə turistlər uzun səfərlərin əziyyəti ilə üzləşirlər. Tarixi və qədim abidələr arxeoloq, tarixçi, tədiqatçı, tələbə və memarların xüsusi diqqətinə səbəb olur. Kəndlərdə elmi-tədqiqat, tarixi və qədim cazibələrə çox tez-tez rast gəlmək olur. Çünki insanların ən qədim yaşayış yerləri kəndlər olmuş və insan əli ilə yaradılmış ilk aibdələrə kəndlərdə təsadüf olunur.

Kəndlərin bəzisi isə özünəməxsus ənənəvi və tarixi sistem baxımından fövqəladə əhəmiyyət daşıyır. Zəncan ostanında da Sultaniyyə kərpic günbəzi dünya günbəz abidələri arasında üçüncü və Orta Şərqdə birincidir ki, 52 metr yüksəkliklə müqəddəs məkanlar (imamzadələr-məscidlər), gözəl Zəncan bazarı və digər tarixi imkanlarla kəndlərdə turistlərin diqqətini cəlb edə bilər.

**Mədəniyyət festivalları**

Kəndərdə müxtəlif mədəniyyət-incəsənət, o cümələdən musiqi, rəqs festivallarının keçirilməsi mədəni turizmin digər gözəlliklərindən biridir. Festivallar və xüsusi mərasimlərin keçirilməsi xüsusi günlərdə baş verir və bütün dünya və İrandan çoxlu tərəfdarlar qazanır. Ölkənin şərq ostanlarından olan Xorasanda rəqs festivallarının keçirilməsi oranın kəndlərinə çoxlu turistləri cəlb etmişdir. Zəncan ostanında da Tarom, Mahənşan və Zəncan kəndlərinin oxşar adət-ənənələri vardır.

**Məişət üsulları**

Kənd təsərrüfatı, maldarlıq, arıçılıq, balıqçılıq və tayfa formasında yaşayış kənd bölgələrinin məişət üsullarından biri kimi digər mədəni marağa səbəb olan gözəlliklərdən sayılır. Çadırlarda köçəri qəbilələrin yaşayışını görmək, onların köç fəslinin xüsusi adətləri ilə yaxından tanış olmaq turistlərin əyləncəsinə səbəb olur. Bundan əlavə o qəbilə mədəniyyəti etnoqrafiyanın tədqiqi üçün xalis mədəniyyətdir. Zəncan ostanı xüsusi coğrafı mövqedə yerləşdiyi üçün dağ ətəklərində çoxlu otlaqlara malikdir ki, burada çoxlu köçəri tayfalar yaşayırlar. Bunlardan Şahsevən, Rəcəyin tayfalarını göstərmək olar.

Müxtəlif fəsillərdə köçəri tayfaların həyatını görmək üçün təşkilatlanmış turların keçirilməsi turizmin inkişafında mühüm yol oynaya bilər. Bu turların keçirilməsi üçün tayfaların yaylaq və qışlaqları, onların keçdiyi yolları tanımaq və onların başçıları ilə lazımi əməkdaşlıqlar etmək lazımdır.

**Musiqi, yerli oyun adətləri**

Yerli musiqi, kənd yerində görməli oyunlar digər mədəni cazibələrdən biridir ki, turistləri cəlb etmək üçün mühüm amil ola bilər. Onların düzgün proqramlaşdırılması və bu mərasimlərin zaman təqviminin təyini ilə incəsənət xadimlərinin cəlbində mühüm addımlar atmaq olar.

**Kənd camaatının paltarı maraqlı amil kimi**

Geyim mədəniyyətin bir nümunəsi kimi xarakterizə olunur. Çünki geyim və digər mədəniyyət xüsusiyyətləri aydın şəkildə bir bölgənin mədəniyyətini göstərir və bu hadisənin arxasında çoxlu tarixi hekayələr gizlənmişdir. Çünki xüsusi bir məntəqənin geyimi həmin bölgənin coğrafi xüsusiyyətlərindən təsirlənmişdir. Buna görə iqlim müxtəlifliyi, müxtəlif geyimlərdə fərq yaratmışdır.

**Xüsusi maraqlar**

**Kəndin idman sahələri**

Qar üstündə xizək sürmə kimi idman sahələrinin tikintisi kəndin idman fəaliyyətləri çərçivəsində həyata keçirilir. Papayi kəndində xizəksürmə imkanının olması bu kəndin turizminin genişlənməsinə böyük təsir göstərmişdir. Belə ki, ostan əhalisi bu bölgəyə axışır və idmanla məşğul olurlar.

Tarom kəndinin taxta evlərinin xüsusiyyətləri

Tarom kəndinin yaşayış yerləri 1369-cu il zəlzələsindən sonra Gilan bölgəsinin üslubunda tikilmişdir ki, iki tərəfdən taxta ilə və daxilinin güllə

suvanması nəticəsində turist üçün gözəl mənzərə yaratmışdır. İran, Hindistanı kimi tanınan Tarom çox turistlərin diqqətini özünə cəlb etmişdir.

**Kənd bölgələrində əyləncə və turizm fəaliyyətlərinin əhatəsi**

Gəzinti: Təbiətdə piyada gəzinti, atsürmə

Motorlu vasitələrlə gəzinti (Motosiklet və digər minik vasitələrinə tamaşa)

Kənddə və kiçik şəhərlərdə gəzinti

Səhra və meşələrdə gəzinti

Qar və su üzərində xizək sürmə və digər idman fəaliyyətləri

Balıqçılıq, üzgüçülük kimi su fəaliyyətləri, qayıqsürmə (Həsən Əbdal və Təhomda)

Qayıqçılıq və dənizçilik yarışları

Hava, şarsürmə, paraşütçülük, havada uçma kimi fəaliyyətlər

Dağa çıxma kimi təbii mühitdə idman fəaliyyətləri

**Kənd mühitində bərpa olunmağa ehtiyacı olan fəaliyyətlər**

Tennis, qolf, azhündürlüklü təpələr üzərində xizəksürmə, oxatma, üzgüçülük

Heyvanların ovlanması (Bu gün fərdi şəkildə həyata keçirilir)

Kənd mədəniyyət fəaliyyətləri

Arxeologiya, binaların restavrasiyası, kənd tarixi abidələrinin öyrənilməsi

Yerli kustar sənayesi, kənd təsərrüfatı və sənaye fəaliyyətləri

Muzeylər, qədim evlər, kənd emalatxanalırana baxış

**Cismi sağlamlıqla bağlı fəaliyyətlər**

Mineral su bulaqları, əyləncə mərkəzləri və müalicə yerləri

Sakit mühitdə istirahət kimi sakit fəaliyyətlər, sakit kənd mühitində əsəbləri sakitləşdirmək.

**Tədqiqat fəaliyyətləri**

Sakit və təbii mühitdə təbiəti öyrənmə

Dilçilik, ümumi mədəniyyət, etnoqrafiya, dinşünaslıq kimi sahələrdə elmi araşdırmalar aparmaq

Kənd yaşayış yerlərinin təşkili

Kənd ərazisinin mərkəzləşdirməsinin tədqiqi

Turizm məqsədilə kiçik konfranslar

Kənd mənzərələrinin bəzisi xüsusi əyləncə fəaliyyətləri üçün təyin olunmuşdur ki, xüsusi əhəmiyyətə malikdir və yerli inkişafda nəzərdə tutulmalıdır (Xudayi, 1384).

Turizm bölməsi kənd təsərrüfatı və sənaye kimi digər iqtisadi fəaliyyətlərlə yanaşı ölkədə, xüsusilə ostanda hakim olan ictimai və mədəni problemlərlə üzləşə bilər. Turizm ostanda yeni iş yerlərinin açılması, kənd təsərrüfatının sənayeləşməsi üçün imkanlar yaradır, kəndlərdə nəinki işsizlik zamanını doldurur, eyni zamanda bölgə iqtisadiyyatına kömək edir. Turistlərin alıcılıq qabiliyyətinin artması kənd iqtisadiyyatının inkişafına da təsir göstərir. Digər tərəfdən kənd mühitləri də öz imkanı miqdarında mühüm gözəlliklərə malikdir

ki, onların istifadəsi nəinki turizmin inkişafına kömək edir, həmçinin müxtəlif sahələrdə, o cümlədən maldarlıq, əl işlərinə rövnəq verir.

Ostanın turizminin inkişafı üçün lazımi sərmayə qoyuluşunu cəlb etmək lazımdır. Digər iqtisadi sektorlarla müqayisədə turizmə çox xərc qoymaq lazım deyil. Turizm sənayesinin inkişafı üçün lazım olan bəzi həlli yolları bunlardan ibarətdir:

Ostanın turizm layihəsini araşdırmaq
Ostanda şose yollarını tikmək
Uzun yolları təmin etmək
Sultaniyyədə turizmlə bağlı sahələri yaratmaq
Turizm məkanlarını reklam etmək
Daxili və xarici sərgi, seminar və toplantılarda iştirak etmək
Yolların üstündə avtovağzallar tikmək.

## ƏDƏBİYYAT


1. پاپلی یزدی، محمد حسین، گردشگری (ماهیت و مفاهیم)، انتشارات سمت1375
Papeli Yəzdi Məhəmməd Hüseyn, Turizm (mahiyyət və məfhumlar. Semət, 1997, s.35-40.
2. پاپلی یزدی، محمد حسین و مهدی سقایی (1381) سنت و مدرنیته، فصلنامه تحقیقات جغرافیایی، شماره 66-65
Papeli Yəzdi Məhəmməd Hüseyn və Mehdi Səqayi. Ənənənə və müasirlik. Coğrafiya araşdırmaları fəsilnaməsi, 2002, s. 65-66
3. پیشگاهی فرد، زهرا، نگرش ژئوپولتیک بر پدیده جهانی شدن، انتشارات دوره عالی جنگ، چاپ دوم، 1380
Pişqahifərd Zəhra, Geosiyasət və qloballaşmağa bir baxış, 2002, s. 42-48
4. جمشیدی، مژگان، زنان و توسعه روستایی، ماهنامه علمی جهاد، شماره 256، ص 37
Cəmşidi Müjgan, Qadınlar və kəndin inkişafı, № 256, s. 37.
5. جینفر، الیوت، 1378، برسی مفاهیم توسعه پایدار، ترجمه احمد بالان، ماهنامه جهاد، شماره 218 و 219
Cenifer Eliot, Sabit inkişaf məfhumlarının araşdırılması, tərcümə: Əhməd Balan, № 218 , 219, 2000, s. 252.
6. خدایی، بهرامعلی، ساماندهی فضایی سکونتگاهی روستایی زنجان با استفاده از (GİS)، پایان نامه کارشناسی ارشد، دانشگاه تربیت معلم تهران، استاد راهنما: دکتر حسن افراخته، 1384
Xudayi Bəhraməli, (GİS)-dən istifadə ilə Zəncanın kənd sahələrinin araşdırılması, magistr dissertasiyası, 2006, s. 304.
7. رضوانی، علی اصغر، جغرافیا و صنعت توریسم، انتشارات پیام نور، 1374
Rizvani Əli Əsgər,Coğrafiya və Turizm sənayesi, Pəyame-nur, 1996, s. 265.
8. زیاری، کرامت اله، اصول و روشهای برنامه ریزی منطقه ای، انتشارات دانشگاه یزد، 1378
Ziyari Kəramətullah, Bölgə proqramlaşdırılmasının üsulları, Yəzd, 2000, s.
9. سقایی، مهدی، بررسی قابلیتهای گردشگری روستایی در ایران، پایان نامه کارشناسی ارشد، دانشگاه فردوسی مشهد، 1382
Səqayi Mehdi, İranda kənd turizmi imkanlarının araşdırılması, Magistr dissertasiyasi, Məşhəd universiteti, 2004, 283 s.
10. عزتی، عزت اله، ژئوپولتیک، انتشارات سمت، 1371
İzzəti İzzətullah, Geosiyasət, Semət, 1993, s. 192.
11. قره نژاد، حسن، اقتصاد و سیاست گذاری توریسم، انتشارات مانی، 1374
Qaranijad Həsən, Turizm siyasətinin iqtisadiyyat və siyasəti, Mani, 1996, s. 205.
12. میراب زاده، پرستو، 1373، توسعه پایدار، فصلنامه محیط زیست، جلد ششم، شماره سوم
Mirabzadə Pərəstu, Ekologiya fəsilnaməsi, 1995, №3, s. 252-257.

13. Besculides, Antonia and Mortha Elee, Residents, Perceptions of the cultural Benefits of tourism, Annals of tourism research, v. 29, N 2, 2002.
14. Fleischer, Suport for Rural torism, Annals of tourism research, 2000, v. 21, №4, p.23-38.
15. Sugiyarto, Cuntnrand Adam Blake, Tourism and Globalization, Annals of tourism research, v. 30, 2003, 30 p.

## ПОТЕНЦИАЛЬНОЕ РАЗВИТИЕ ТУРИЗМА В Г. ЗЕНДЖАНЕ С GİS

**БАХРАМАЛИ ХУДАИ**

**РЕЗЮМЕ**

В статье широко рассматривается туризм г. Зенджана. Как известно, развитие сельского туризма занимает особое место в промышленности г.Зенджана, особое внимание превлекло городской туризм. По сегодняшний день особое внимание уделено городской части туризма. По этой причине в исследовательской работе отведено внимание сельскому туризму г. Зенджана.

**Ключевые слова:** туризм, село, геополитика, город, ресурс.

## THE POTENTIAL DEVELOPMENT OF TOURISM IN ZANJAN REGION WITH USAGE OF GİS

**BAHRAMALI KHUDAYI**

**SUMMARY**

The article widely analyzes tourism of Zanjan region, apparently, the development of rural tourism occupies an important place in the development of the tourism industry. As vast attention is delivered to urban tourism presently, we focused on the rural tourism in the work.

**Key words:** Tourism, village, geopolitical, city, resource.

Redaksiyaya daxil oldu: 10.03.2011-ci il.
Çapa imzalandı: 27.07.2011-ci il.